**UOT 1(09)**

# AZƏRBAYCAN FƏLSƏFƏ TARİXŞÜNASLIĞININ PROBLEMLƏRİ: ZAKİR MƏMMƏDOV İRSİ (Zakir Məmmədovun doğumunun 85 illiyi münasibətilə)

**Aytək Məmmədova**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
aytekmammadova@mail.ru
DOI:10.30546/ifs.2021.1(36).41

**Xülasə**. Məqalədə Azərbaycan fəlsəfəsi tarixşünaslığı ilə əlaqədar məsələlər tədqiq edilir. Ölkəmizin fəlsəfə tarixi məsələlərini araşdırmış akademik Heydər Hüseynovun, akademik A.O.Makovelskinin, professor Ə.K.Zəkuyevin, professor Ənvər Əhmədovun, professor Midhət Ağamirovun, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, professor Ziyəddin Göyüşovun, AMEA-nın müxbir üzvü Zakir Məmmədovun və başqalarının mühüm xidmətlərindən bəhs edilir. Burada Azərbaycanın düşüncə tarixinin tədqiqinə keçmiş SSRİ dövründən başlanıldığı, müstəqillik qazandıqdan sonra fəlsəfi fikrimizin, milli-mənəvi dəyərlərimizin öyrənilməsinə marağın daha da artdığı bildirilir. Məqalədə Zakir Məmmədovun XX əsrin 60-cı illərindən elmi yaradıcılığa başladığı göstərilir. Alim öz tədqiqatları ilə, yaradıcılığından əldə cüzi material olan Bəhmənyar istisna olmaqla, "Orta əsrlərdə Şərqdə peşəkar filosoflar yaşamamışdır" müddəasını təkzib etmiş, Şərq dillərində yazıb-yaratmış Azərbaycan filosoflarının və mütəfəkkirlərinin dünyanın müxtəlif ölkələrində çap olunmuş, habelə əlyazma şəkilində saxlanılan zəngin irsini üzə çıxarmış və ilk dəfə olaraq araşdırmışdır. Bu il Zakir Məmmədovun anadan olmasının 85 illiyidir.

**Məqsəd:** Azərbaycan fəlsəfə tarixşünaslığını və Zakir Məmmədovun irsini tədqiq etmək
**Metodologiya:** sistemli yanaşma, tarixilik metodu
**Elmi yenilik:** İlk dəfə olaraq Azərbaycan fəlsəfə tarixşünaslığında Zakir Məmmədovun xidmətləri araşdırılır
**Açar sözlər:** Azərbaycan fəlsəfəsi, tarix, alim, fəlsəfə, mədəniyyət, elm

## ПРОБЛЕМЫ ИСТОРИОВЕДЕНИЯ ФИЛОСОФИИ АЗЕРБАЙДЖАНА: НАСЛЕДИЕ ЗАКИРА МАМЕДОВА (Посвящается 85-летию со дня рождения Закира Мамедова)

**Айтек Мамедова**

**Резюме.** В статье исследуются вопросы, связанные с историоведением азербайджанской философии. В статье рассматриваются важные заслуги академика Гейдара Гусейнова; академика А.О. Маковельского; профессора А.К. Закуева, профессора Анвара Ахмедова; профессора Мидхата Агамирова; члена-корреспондента АН Азербайджана, профессора Зияддина Геюшева; члена-корреспондента НАНА Закира Мамедова и других, изучавших проблемы истории философии нашей страны. В статье подчеркивается, что изучение исторической мысли в Азербайджане началось в бывшем СССР, и после обретения независимости возрос интерес к изучению этнической философской мысли, национальных и духовных ценностей. В статье особое внимание уделяется началу научной деятельности Закира Мамедова начавшейся в 60-х год XX века. З. Мамедов опроверг мнение ученых о том,что в средние века на Востоке не было профессиональ-

ных философов и ученых, (за исключением Бахманьяра, у которого было мало материала из его работ). Он своими научными исследованиями доказал, обнаружив и исследовав, богатое наследие азербайджанских философов и мыслителей, писавших на восточных языках и опубликованных в разных странах. Непосредственно выявил и исследовал их работы в рукописном виде. В этом году исполняется 85 лет со дня рождения Закира Мамедова.

**Цель: и**зучить историоведение азербайджанской философии и наследие Закира Мамедова.

**Методология:** системный подход, исторический метод

**Научная новизна:** впервые в истории философии Азербайджана изучаются заслуги в науке ученого Закира Мамедова.

**Ключевые слова:** Азербайджанская философия, история, ученый, философия, культура, наука

**PROBLEMS OF THE HISTORICAL STUDIES OF AZERBAIJANI'S PHILOSOPHY: HERITAGE OF ZAKIR MAMMADOV**
**(Dedicated to the 85th anniversary of the birth of Zakir Mammadov)**

**Aytek Mammadova**

**Abstract.** The article examines issues related to the history of Azerbaijani philosophy, discusses the important merits of academician Heydar Huseynov, academician A.O. Makovelsky, professor A.K.Zakuev, professor Anvar Akhmedov, professor Midhat Agamirov, corresponding Member of the Azerbaijan Academy of Sciences, Professor Ziyaddin Geyushov, corresponding Member of ANAS - Zakir Mammadov and others who studied the problems of the history of philosophy of Azerbaijan. It is emphasized here that the study of historical thought in Azerbaijan began in the former USSR, and after gaining its independence, interest in the study of our philosophical thought, national and spiritual values increased. The article states, that the beginning of Zakir Mammadov's scientific activity begins in the 60s of the 20th century. He refuted the opinion of scientists that in the Middle Ages in the East there were no professional philosophers, scientists, with the exception of Bahmanyar, who had little material profit from his works. With his scientific research, he proved that he was the first to discover and study the rich heritage of Azerbaijani philosophers and thinkers who wrote in oriental languages and whose works were published in different countries. The researcher identified and studied their works in handwritten form. This year marks 85 years since the birth of Zakir Mammadov.

**Purpose: t**o study the history of Azerbaijani philosophy and the heritage of Zakir Mammadov.

**Methodology:** system approach, historical method.

**Scientific novelty: f**or the first time in the history of philosophy of Azerbaijan, the achievements in science of the scientist Zakir Mammadov are being studied.

**Keywords:** Azerbaijani philosophy, history, scientist, philosophy, culture, science

**Giriş/Introduction**

Azərbaycan ərazisi qədim və orta əsr tarixçiləri, coğrafiyaçıları və səyyahları tərəfindən maddi nemətləri, yeraltı sərvətləri görə qaynaqlarda daim yad edilmişdir. Maddi-mədəniyyət abidələrindən Azərbaycan xalqının zəngin tarixi keçmişə malik olması məlumdur. Şərqə məxsus elmi biliklərdə və fəlsəfi fikirdə Azərbaycan alimlərinin, filosoflarının və mütəfəkkirlərinin özünəməxsus yeri vardır.

Azərbaycanda milli-mənəvi dəyərlərin və düşüncə tariximizin tədqiqinə keçmiş SSRİ dövründən başlanılmışdır. Müstəqillik qazandıqdan sonra fəlsəfi fikrimizin, milli-mənəvi dəyərlərimizin öyrənilməsinə maraq daha da artmışdır. Bununla əlaqədar AMEA-nın müxbir üzvü Zakir Məmmədov yazmışdır: "Azərbaycan xalqının fəlsəfi fikrinin uzun əsrlər boyu mövcud olub tərəqqi etməsinə baxmayaraq, Azərbaycan fəlsəfəsi tarixi çox cavan elmdir. Bu sahədə tədqiqatlar yalnız XX əsrin 40-cı illərindən başlamışdır".

Azərbaycanda fəlsəfənin müxtəlif sahələrində fəaliyyət göstərmiş alimlərin – akademik Heydər Hüseynovun, akademik A.O.Makovelskinin, professor Ə.K.Zəkuyevin, professor Ənvər Əhmədovun, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, professor Ziyəddin Göyüşovun, akademik Fuad Qasımzadə, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, professor Məqsəd Səttarovun, akademik Aslan Aslanovun, professor Cəmil Əhmədlinin, professor Maarif Əkbərovun, professor Midhət Ağamirovun, AMEA-nın müxbir üzvü Zakir Məmmədovun və başqalarının elmi yaradıcılıqları xüsusilə təqdirəlayiqdir.

XX əsrdə Azərbaycanda fəlsəfənin nəzəri məsələləri ilə məşğul olan alimlər yaradıcılıqlarında fəlsəfənin tarixinə də müəyyən yer vermişlər. Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, professor Məqsəd Səttarovun elmi yaradıcılığı ictimai şüurun inkişaf qanunauyğunluqları istiqamətlərini, din və ateizm məsələlərini əhatə etmişdir. Alim Azərbaycanın mənəvi-mədəni həyatında islamın yeri və rolu, ictimai şüurun strukturu və onun ünsürlərinin qarşılıqlı təsiri, ictimai şüurun yeniləşdirilməsi yollarını araşdırmışdır [10, 291].

Professor Cəmil Əhmədlinin elmi yaradıcılığında qanun kateqoriyasının formalaşması tarixi, azadlıq və zərurət, qanun və kateqoriyalar, məkan və zaman və başqa fəlsəfi problemlər barədə məsələlər əhatəli şəkildə işıqlandırılmışdır. Tədqiqatçı əsasən fəlsəfənin nəzəriyyəsi ilə əlaqədar məsələləri araşdırsa da, əsərlərində filosofların həmin problemlər haqqında fikirlərini də təqdim etmişdir.

Azərbaycanda fəlsəfənin başqa elmlərlə yaxınlaşma, inteqrasiya məsələlərinə də diqqət yetirilmişdir. Bu mənada professor Maarif Əkbərov Azərbaycanda riyaziyyatın fəlsəfəsi ixtisası üzrə ilk alimdir, riyaziyyatçı-filosofdur. Tədqiqatçının yaradıcılığında riyaziyyatın və təbiətşünaslığın fəlsəfi məsələləri hərtərəfli şəkildə göstərilmişdir. Alim riyaziyyatda gözəllik problemini də izah etmişdir. Maarif Əkbərovun fikrincə, estetik zövqlərin, gözəlliyin tükənməz mənbələrindən biri məhz təbiətdir, maddi gerçəklikdir. Bununla da gerçəkliyə xas olan gözəlliklər, insana estetik zövq verən bəzi xüsusiyyətlər riyazi həqiqətlərdə öz spesifik təzahürünü tapmaya bilməz. Ümumiyyətlə, riyaziyyat ilə estetikanın əlaqəsinin, xüsusi halda isə gözəlliyin riyaziyyatda təzahürünün obyektiv əsası məhz bundadır.

**Azərbaycan fəlsəfə tarixşünaslığının problemləri**

Azərbaycan fəlsəfəsi tarixşünaslığı ilə əlaqədar məsələləri işıqlandırarkən öncə H.Hüseynovun, Ə.K.Zəkuyevin və A.O.Makovelskinin xidmətləri qeyd edilməlidir. Zakir Məmmədov göstərmişdir: "Akademik H.Hüseynov ilk dəfə olaraq Azərbaycanın orta əsr peşəkar filosofları ilə maraqlanmış, Bəhmənyarın 1851-ci ildə ərəb və alman dillərində Leypsiqdə, 1911-ci ildə ərəb dilində Qahirədə çapdan çıxmış "Metafizika elminin mövzusu" və "Mövcudatın mərtəbələri" traktatlarını aşkar edib araşdırmışdır. Professor Ə.K.Zəkuyev cəmi bir çap vərəqindən az həmin iki traktatdan əlavə, Bəhmənyarın məxəzlərdə saxlanılan bəzi kəlamlarını və İbn Sinaya bir məktubunu tədqiqata çəkərək "Bəhmənyarın fəlsəfi görüşləri" kitabını yazmışdır". Ə.K.Zəkuyev kitabında qeyd etmişdir: "İbn Sina və onun şagirdi Bəhmənyarın fəlsəfi görüşlərini sözün dar və adi mənasında orta əsrlərdə Yaxın Şərq fəlsəfəsinin son sözü adlandırsaq səhv etmərik. Bəhmənyar feodalizm dövründə, Yaxın Şərqdə son görkəmli peşəkar peripatetik filosof idi. Bəhmənyardan sonra Yaxın Şərqdə peripatetik fəlsəfə tənəzzülə uğrayır və öz əvvəlki əhəmiyyətini itirir" [11, 88-89].

Antik fəlsəfənin və "Avesta"nın məşhur tədqiqatçısı akademik A.O.Makovelski də Bəhmənyar haqqında maraqlı mülahizələr söyləmişdir. Bəhmənyarın fəlsəfi mövqeyinin qiymətləndirilməsində o zaman əldə olan faktik materialın azlığı üzündən ciddi fikir ayrılığına yol verilmişdir.

Zakir Məmmədov akademik Heydər Hüseynovdan sonra sırf elmi-fəlsəfi irsimizin tədqiq edilmədiyini, əsas diqqətin şairlərin dünyagörüşünün tədqiqinə yönəldiyini bildirmişdir. Xaqani, Nizami, Marağayi, Şəbüstəri, Nəsimi, Füzuli və b. görkəmli mütəfəkkir şairlər haqqında geniş araşdırmalar aparıldı, onların dünyagörüşünə dair bir çox kitab və məqalələr yazıldı, nəşr edildi. Nizami Gəncəviyə həsr olunmuş tədqiqatlar içərisində Camal Mustafayevin "Nizaminin fəlsəfi və etik görüşləri" (rus dilində, 1962) kitabı elmi dəyəri ilə seçilir. Mütəfəkkir şairlərimiz haqqında

uğurlu tədqiqatlardan biri də Şaiq İsmayılovun "Mahmud Şəbüstərinin fəlsəfəsi" (1976) monoqrafiyasıdır [6].

Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Ziyəddin Göyüşov Azərbaycanda fəlsəfi-etik fikir tarixi problemləri ilə məşğul olmuş və bu sahədə elmi istiqamət yaratmışdır. O, Azərbaycan fəlsəfə tarixi və etikaya dair dəyərli əsərlərin müəllifidir [3, 259]. Alimin əsərlərində A.Bakıxanov, M.F.Axundov, S.Ə.Şirvani və b. maarifçilik fəaliyyəti əhatəli şəkildə göstərilir, onların fəlsəfi-etik fikirləri araşdırılır. Ziyəddin Göyüşov Həsən bəy Zərdabinin seçilmiş əsərlərini ilk dəfə tərtib və çap etdirmişdir [9, 37-39]. O, etkanın tarixi və nəzəriyyəsi ilə bağlı məsələləri araşdırmış, Azərbaycanda etikanı sistemli şəkildə tədqiq etmişdir.

Professor Ənvər Əhmədovun yaradıcılığında məntiq məsələləri mühüm yer tutur. Məlumdur ki, 1946-cı ildə keçmiş SSRİ məkanında orta məktəbdə məntiqin tədris edilməsi haqqında qərar qəbul edilmişdi. 1947-1948-ci tədris ilində məntiq orta məktəblərdə öyrədilməyə başlanılmışdı. Məntiq fənninin orta məktəblərdə də tədris edildiyi bir zamanda Ənvər Əhmədov məntiqlə məşğul olmuş, həm də universitetdə tədris etmişdir. Alim axtarışlar nəticəsində Abbasqulu ağa Bakıxanovun "Tərəzinin mahiyyəti" adlı məntiq əsərinin əlyazmasını tapmışdır.

Qeyd etmək lazımdır ki, XX əsrin ortalarına qədər Şərq filosoflarının məntiqi görüşləri xüsusi şəkildə tədqiq edilməmişdir. Zakir Məmmədov Şərq peripatetizmi məktəbinin görkəmli nümayəndəsi, filosof, təbiətşünas alim, məntiqçi, ictimai-siyasi xadim Siracəddin Urməvinin (1198-1283) məntiqinin araşdırılmasına həsr edilmiş "Siracəddin Urməvinin məntiqi görüşləri" mövzusunda namizədlik dissertasiyasını 1967-ci ildə tamamlamışdı. Belə bir dövrdə Zakir Məmmədov Ənvər Əhmədovla tanış olmuşdur. Əsası dünya şöhrətli poliqlot alim, professor Əli Əsgər Məmmədov tərəfindən qoyulmuş ərəbşünaslıq məktəbinin ilk nümayəndələrindən olan Zakir Məmmədov ərəb dilini və Şərq fəlsəfəsini, məntiqini mükəmməl bildiyi üçün Ə.Əhmədov "Tərəzinin mahiyyəti" əsərinin tərcüməsini ona həvalə etmişdir. "Tərəzinin mahiyyəti" əsəri ilk dəfə 1971-ci ildə Azərbaycan dilində çapdan çıxmışdır.

Akademik Fuad Qasımzadə Azərbaycanda fəlsəfi-estetik, ümumiyyətlə, ictimai elmlər sahəsində bir çox məsələləri tədqiq etmişdir. O, "Dədə Qorqud"un fəlsəfəsini, böyük mütəfəkkir şair Məhəmməd Füzulinin dünyagörüşünü, A.Bakıxanovun fəlsəfi görüşlərini araşdırmışdır [4, 317]

Akademik Aslan Aslanovun tədqiqatı Şərqin estetik görüşlərinin araşdırılmasına həsr edilmişdir. Qədim Şərqin estetik ideyalarının antik estetikaya təsirinin araşdırılması və bu faktların təsdiqi, Qərb və Şərq estetikası arasındakı qarşılıqlı əlaqələrin ümumiləşdirilməsi və tənqidi baxımından mənalandırılması da onun adı ilə bağlıdır [2, 195].

Professor Midhət Ağamirovun Azərbaycanda müasir fəlsəfi fikrin öyrənilməsində mühüm xidməti vardır. Alimin irsini araşdıran fəlsəfə doktoru Müstəqil Ağayev "Azərbaycan fəlsəfəsi tarixinin görkəmli tədqiqatçısı" məqaləsində onun elmi fəaliyyəti dövründə on monoqrafiya çap etdirdiyini bildirmişdir. Bunlardan "Mirzə Ələkbər Sabirin dünyagörüşü" (1962), "Azərbaycan ictimai fikrində milli məsələ" (1963), "Abdulla Şaiqin dünyagörüşü" (1983), "Məhəmməd Hadinin fəlsəfəsi" (1987), "Azərbaycan romantiklərinin dünyagörüşü" (1989) və başqalarını göstərmək olar [1].

Zakir Məmmədovun fikrincə, orta əsr Azərbaycan fəlsəfəsi ilə tanış olmadan orta əsr mütəfəkkir şairlərinin dünyagörüşünü müəyyənləşdirmək, A.Bakıxanovun, M.F.Axundovun ideyalarını dürüst anlamaq qeyri-mümkündür. XX əsr fəlsəfəmizin müqtədir tədqiqatçısı mərhum professor Ənvər Əhmədovun ərəbdilli fəlsəfi təlimlər və cərəyanlarla ciddi maraqlanması təsadüfi deyildi.

"Ayrı-ayrı tarixi mərhələlərdə yetkinləşmiş Azərbaycan fəlsəfəsi xüsusilə orta əsrlərdə yüksək inkişaf səviyyəsinə çatmışdır" fikrini irəli sürən Zakir Məmmədov yazmışdır: "Feodalizm dövründə fəlsəfi fikir öz ifadəsini müəyyən elmi-fəlsəfi cərəyanlara mənsub, çoxcəhətli yaradıcılığa malik peşəkar filosofların, habelə sxolast hüquqşünasların, mistik ilahiyyatçıların, ədib və şairlərin əsərlərində tapmışdır. Bu mənbələrdən tədqiqata ilk dəfə, demək olar ki, ancaq şairlərimizin yaradıcılığı cəlb edilmiş, poetik irs üzərində fəlsəfi araşdırmalar aparılmışdır. Başqa Şərq xalqları kimi, Azərbaycan xalqının da bədii təfəkkürü, klassik poeziyası etik, estetik və fəlsəfi ideyalarla

zəngin olsa da, fəlsəfi fikrin təkcə poeziya əsasında öyrənilməsi belə bir yanlış rəy doğurmuşdur ki, guya orta əsrlərdə fəlsəfə müstəqil elm sahəsinə ayrılmamış, yalnız ədəbiyyatın içində inkişaf etmişdir. Yaradıcılığından əvvəllərdə cüzi material olan Bəhmənyar istisna sayılmış, Şihabəddin Yəhya Sührəvərdi sözün klassik mənasında filosof hesab edilməmişdir".

**Zakir Məmmədov irsi**

AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru Zakir Məmmədov tərəfindən peşəkar fəlsəfi irsin varlığı aşkara çıxarılmışdı. Alim "Şərqdə peşəkar filosoflar yaşamamışlar, yaradıcılığından əldə cüzi material olan Bəhmənyar istisnadır" müddəasını elmi tədqiqatlar ilə təkzib etmişdir. Belə ki, XX əsrin 60-cı illərindən gərgin axtarışlar aparan tədqiqatçı Şərq dillərində yazıb-yaratmış Azərbaycan filosoflarının və mütəfəkkirlərinin dünyanın müxtəlif ölkələrində çap olunmuş, habelə əlyazma şəklində saxlanılan zəngin irsini üzə çıxarmış, onların fəlsəfəsini (varlıq təlimi və idrak nəzəriyyəsini), məntiqini, ictimai-siyasi və etik görüşlərini işləyib hazırlamışdır. Zakir Məmmədov elmi yaradıcılığının başlanğıcında ərəb, fars dillərində nadir elmi tapıntılardan sonra bir sıra görkəmli filosoflarımız haqqında ümumi, Əfzələddin Xunəci, Siracəddin Urməvi, Şihabəddin Sührəvərdi haqqında ayrıca məqalələr çap etdirmişdi.

Zakir Məmmədov 1967-ci ildə tamamladığı "Siracəddin Urməvinin məntiqi görüşləri" mövzusunda namizədlik dissertasiyasının müdafiəsinə 1969-cu ildə müvəffəq olmuşdur. 1974-cü ildə bitirdiyi "Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir" adlı doktorluq dissertasiyası 1978-ci ildə kitab şəklində çap olunsa da, müdafiəsini 16 il sonra edə bilmişdir.

Zakir Məmmədov AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunda (indiki Fəlsəfə və Sosiologiya İnstitutu) ilk dəfə "Şərq fəlsəfəsi tarixi və dinşünaslıq" adlı elmi-tədqiqat şöbəsini yaratmış və ona başçılıq etmiş, 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Orta əsrlər Azərbaycanda, ümumiyyətlə, müsəlman Şərqində yüksək tərəqqi və inkişaf dövrü idi. "Fəlsəfə tarixi nəzəri təfəkkür qabiliyyətini inkişaf etdirmək və təkmilləşdirmək üçün yeganə vasitədir" fikrini irəli sürən Zakir Məmmədov məhz buna görə qırx ilə yaxın müddətdə elmi axtarışlar aparıb, orta əsrlərdə Şərqdə, o cümlədən Azərbaycanda dini fəlsəfə ilə yanaşı, elmi fəlsəfənin də varlığını sübuta yetirmişdir. Alimin əsərlərindən məlumdur ki, mükəmməl dini-fəlsəfi təlimlərlə yanaşı, yetkin elmi fəlsəfi sistemlər meydana gəlmişdi. X əsrdə türk filosofu Əbunəsr Məhəmməd Farabinin işləyib hazırladığı Şərq peripatetizmini Azərbaycanda Bəhmənyar (993-1066), Əfzələddin Xunəci (1194-1248), Siracəddin Urməvi (1198-1283) və digər görkəmli təbiətşünas filosoflar inkişaf etdirmişlər. O dövrdə bütün təbiət və riyaziyyat elmləri (fizika, kimya, tibb, mexanika, hesab, həndəsə, cəbr, astronomiya və i.a.) peripatetik fəlsəfə ətrafında birləşmişdi. XII əsrdə Azərbaycan filosoflarından Eynəlqüzat Abdulla Miyanəcinin (1131-ci ildə 32 yaşında edam edilib) panteist təlimi və Şihabəddin Yəhya Sührəvərdinin (1191-ci ildə 37 yaşında edam edilib) işraqilik təlimi fəlsəfi məktəbə çevrilərək əsrlər boyu istedadlı filosoflar üçün örnək olmuşdur. Onların ideyaları sonralar Avropa ölkələrinə nüfuz etmişdir. Bir sözlə, dünya fəlsəfəsi tarixi orta əsrlərdə məhz Şərq, ələlxüsus Azərbaycan filosoflarının sayəsində elmi-fəlsəfi təlimlərdən xali olmamışdır.

Zakir Məmmədov Azərbaycanda Eynəlqüzat Miyanəcinin fəlsəfi irsinin yeganə tədqiqatçısıdır. Alim elmi yaradıcılığa başladığı illərdən sufizmdə panteist sistemi ilk dəfə İbn Ərəbinin (1165-1240) işləyib hazırlaması haqqındakı yanlış müddəanı elmi faktlarla təkzib etmiş, İbn Ərəbidən hələ yarım əsr əvvəl sufizmin panteist fəlsəfəsini Eynəlqüzat Miyanəcinin yaratdığını mənbələrlə sübut etmişdir.

Müqtədir Azərbaycan filosoflarının təlimləri fəlsəfi məktəbə çevrilərək, bütün müsəlman Şərqi ölkələrində əsrlər boyu istedadlı filosoflar üçün örnək olmuşdur. Onların ideyaları sonralar islam aləmi ilə məhdudlaşmayıb, Avropa ölkələrində də yayılmışdır. Bir sözlə, dünya fəlsəfəsi tarixi orta əsrlərdə (1000 illik bir dövrdə) məhz Şərq, ələlxüsus Azərbaycan filosoflarının sayəsində elmi-fəlsəfi dünyagörüşdən xali olmamışdır. Bütün bunları Zakir Məmmədov 30-dan çox kitabda (çap edilmiş və çap edilməmiş) və 250-dən çox məqalədə ifadə etmişdir.

Alimin "Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir" (1978), "Bəhmənyarın fəlsəfəsi" (1983), "Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri" (1986, rusca: 1993), "Azərbaycan fəlsəfəsi tarixi"

(1994; təkrar nəşr: 2006), "Nizami Gəncəvinin fəlsəfi düşüncələri" (2000), "Şihabəddin Yəhya Sührəvərdi (həyatı, yaradıcılığı və dünyagörüşü)" (2009), "Seçilmiş əsərləri" (2015; 740 səh.) və başqa əsərləri çapdan çıxmışdır. Onun XX əsrin 60-cı illərindən etibarən dərc edilən elmi əsərləri orijinallığını, elmi dəyərini hər zaman saxlayır.

"Fəlsəfə tariximizin təxirəsalınmaz vacib işi mövcud mənbələrin ərəb və fars dillərindən Azərbaycan dilinə tərcüməsini, bununla birlikdə Azərbaycan fəlsəfəsinin elmi tarixini geniş ictimaiyyətə çatdırmaqdır" mövqeyindən çıxış edən Zakir Məmmədov 21 çap vərəqindən çox həcmdə bircildlik "Azərbaycan fəlsəfəsi tarixi" (1994) kitabının zəngin və orijinal fəlsəfəmiz barədə müəyyən sistemli təsəvvür yaratmağa xidmət etdiyini bildirmişdir.

Zakir Məmmədovun "Azərbaycan fəlsəfəsi tarixi" kitabı Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunan kitablar sırasında 2006-cı ildə təkrar çap edilmişdir.

"İslam aləminin fəlsəfəsi" və "İslam fəlsəfəsi" ifadələri arasında məna fərqi vardır. Zakir Məmmədov ilk dəfə olaraq bu məsələdən bəhs etmişdir. Alim yazmışdır: "İslam aləminin mədəniyyəti, elmi, fəlsəfəsi və s." əvəzinə, "islam mədəniyyəti, elmi, fəlsəfəsi və s." demələri dolaşıqlıq yaradır. İbn Sina, Bəhmənyar, İbn Rüşd, Eynəlqüzat Miyanəci və Şihabəddin Sührəvərdini – bitkin elmi-fəlsəfi təlimlərinə, müstəqil doktrinalarına görə əzab və işgəncələrə məruz qalmış bu filosofları Əbuhamid Qəzali ilə, ümumiyyətlə, sxolastlarla bir mövqedə tutub, onları "islam fəlsəfəsinə" aid etmək düzgün deyildir [7, 23].

Alimin bütün tədqiqatları ilk mənbələr əsasında olmuş və ona görə də o,həmin əsərlərin Azərbaycana gətirilməsi üçün böyük əmək sərf etmişdir. Belə ki, Zakir Məmmədovun tədqiqatlarına qədər Bəhmənyarın "Metafizikanın mövzusu" və "Mövcudatın mərtəbələri" adlı kiçikhəcmli iki traktatı məlum idi. Tədqiqatçı filosofun geniş həcmli "Təhsil" əsərinin varlığını aşkara çıxarmışdır. Onun əlaqədar təşkilatlara çoxsaylı müraciətləri hesabına həmin traktat Azərbaycana gətirilmişdir. Alim "Təhsil" əsərini ilk dəfə olaraq tam halda tədqiqata cəlb etmişdir.

Zakir Məmmədov ilk dəfə olaraq böyük filosof, riyaziyyatçı, rübailər ustası kimi tanınan məşhur Ömər Xəyyamın (1048-1131) Bəhmənyarın şagirdi olduğunu göstərmişdir. Tədqiqatçının fikrincə, Bəhmənyar məktəbinin fəlsəfi ənənələri Nəsirəddin Tusi və onun məktəbinin nümayəndələri tərəfindən inkişaf etdirilərək Şərq peripatetizminin son böyük nümayəndəsi Rəcəbəli Təbrizidə (...-1669) sona çatmışdır.

Zakir Məmmədov Şərq, xüsusən Azərbaycan filosoflarının əsərlərini, nadir əlyazmalarının mikrofilmlərini, çap nüsxələrini alaraq həmin mənbələr əsasında orta əsr Şərq filosoflarının təlimlərini hərtərəfli və geniş şəkildə araşdırmışdır, Azərbaycanda onların yeganə tədqiqatçısı olmuşdur. O, dünya şöhrətli filosoflarımızın irsini tədqiq etməklə bərabər, onların elmi ictimaiyyət tərəfindən tanınması uğrunda da çalışmışdır.

Zakir Məmmədov 1969-cu ildən 1970-ci ilə qədər Azərbaycan Sovet Ensiklopediyasında elmi redaktor vəzifəsində (yarımştat) işləmiş, milli fəlsəfəmizə dair materialların ensiklopediyada geniş yer tutmasına səy göstərmişdir. Şərq filosoflarından – Əbunəsr Farabi, Məhəmməd Bərdəi, Əsirəddin Əbhəri, Əbunnəcib Sührəvərdi, Əbuhəfs Sührəvərdi, Şihabəddin Yəhya Sührəvərdi, Həmədani Eynəlqüzat Miyanəci, Siracəddin Urməvi, Əfzələddin Xunəci, Əminəddin Təbrizi, Rəcəbəli Təbrizi, Tacəddin Urməvi, Qütbəddin Şirazi, Məhəmməd Xalxali, Şəmsəddin Xoylu, Şihabəddin Xoylu, Şəmsəddin Xosrovşahi, Mühyiddin Qarabaği kimi qırx nəfərdən çox mütəfəkkir məhz onun tədqiqatlar sayəsində 10 cildlik "Azərbaycan Sovet Ensiklopediyası"na salınmışlar.

Qeyd etmək lazımdır ki, Zakir Məmmədovun təşəbbüsü ilə Azərbaycan EA Rəyasət Heyəti İşraqilik təliminin banisi Şihabəddin Yəhya Sührəvərdinin vəfatının 800 illik yubileyinin keçirilməsi ilə əlaqədar 2 aprel 1991-ci ildə qərar qəbul etmişdir. Həmin qərara əsasən 25 dekabr 1991-ci ildə Fəlsəfə və Hüquq İnstitutunda (indiki Fəlsəfə və Sosiologiya İnstitutu) işraqi filosofun yubileyi keçirilmişdir.

Tədqiqatçı İşraqilik təliminin banisi Şihabəddin Yəhya Sührəvərdinin (1154-1191) irsini XX

əsrin 60-cı illərindən araşdırmaqla Azərbaycanda mütəfəkkirin fəlsəfi irsinin yeganə tədqiqatçısı olmuşdur. Zakir Məmmədov ərəbşünas alim Tariyel Həsənovla birlikdə Şihabəddin Yəhya Sührəvərdinin "Filosofların görüşləri" traktatını Azərbaycan və rus dillərinə tərcümə etmişdir. Traktat orijinalı ilə birlikdə hər iki dildə ilk dəfə 1986-cı ilə çapdan çıxmışdır.

Alim 1989-cu ildə Şihabəddin Yəhya Sührəvərdinin "İşıq heykəlləri" traktatının ərəbcədən azərbaycancaya tərcüməsini, Siracəddin Urməvi (1990), Şihabəddin Sührəvərdi (1991), Eynəlqüzat Miyanəci (1992) haqqında irihəcmli monoqrafiyalardan müəyyən hissələri şəxsi vəsaiti hesabına kitabça şəklində çap etdirmişdir.

Zakir Məmmədov Yəqub Kindinin "İlk fəlsəfə" traktatını, Əbülhəsən Əşərinin "Müsəlmanların fikirləri və ibadət edənlərin rəy müxtəlifliyi" əsərlərindən fraqmentləri, Farabinin "Məsələlərin mahiyyəti" kitabını, İbn Sinanın "Bilik kitab"ından fizika hissəsini, "Siyasət kitabı. Etikaya dair traktat"ını, Bəhmənyarın "Metafizikanın mövzusu" və "Mövcudatın mərtəbələri" traktatlarını, "Təhsil kitab"ından Məntiq hissəsini, Qəzalinin "Yanılmaqdan xilas edən" traktatından parçaları, Eynəlqüzat Miyanəcinin "Həqiqətlərin məğzi" traktatından parçaları, Əbuhəfs Sührəvərdinin "Biliklərin töhfələri" kitabından seçilmiş parçaları və i.a. əsərləri Azərbaycan dilinə ilk dəfə tərcümə edərək "Şərq fəlsəfəsi (IX-XII əsrlər)" (BDU nəşriyyatı, 1999) toplusuna daxil etmişdir.

Zakir Məmmədovun təşəbbüsü ilə Bəhmənyarın anadan olmasının 1000 illik yubileyini 1993-cü ildə keçirmək barədə Azərbaycan EA Rəyasət Heyəti və Nazirlər Kabineti qərarlar qəbul etmişdir. Bu münasibətlə Fəlsəfə və Hüquq İnstitutunda (indiki Fəlsəfə və Sosiologiya İnstitutu) üç elmi sessiya, bir çox ali məktəblərdə konfranslar keçirilmişdir. Zakir Məmmədovun təşəbbüsü ilə 1998-ci ildə Siracəddin Urməvinin anadan olmasının 800 illik yubileyi ilə əlaqədar Azərbaycan EA Rəyasət Heyəti tərəfindən qərar qəbul edilmişdir. O, Siracəddin Urməvinin, Əfzələddin Xunəcinin anadan olmalarının 800 illik yubileyləri, 1999-cu ildə Eynəlqüzat Miyanəcinin anadan olmasının 900 illik yubileyi ilə əlaqədar məqalələr hazırlamış, jurnal və qəzetlərdə nəşr etdirmişdir. Zakir Məmmədov 2000-ci ildə Ümummilli lider Heydər Əliyevin Nəsirəddin Tusinin anadan olmasının 800 illiyi haqqında verdiyi fərmanla Dövlət Yubiley Komissiyasının üzvü seçilmişdir.

Tədqiqatçı alim Nəsirəddin Tusinin irsini hərtərəfli şəkildə araşdırmışdır. Zakir Məmmədovun tədqiqatından məlum olur ki, 1266-cı ildən Marağa rəsədxanasında Nəsirəddin Tusi ilə bir yerdə çalışan azərbaycanlı mühəndis Kəriməddin Əbubəkr Mahmud oğlu Səlmasinin düzəltdiyi cihazlar arasında Yer kürəsinin içiboş modeli də varmış. Üzərində iqlimlərin təsviri verilmiş bu fiqur coğrafi qlobus idi. Bununla da Zakir Məmmədov elm aləmində ilk coğrafi qlobusun alman alimi Martin Behaym (1459-1507) tərəfindən hazırlaması haqqında fikri elmi dəlillər əsasında təkzib etmişdir. Zakir Məmmədov Bakı, Daşkənd, Səmərqənd, Fərqanə və Düşənbə şəhərlərində keçirilən çoxsaylı beynəlxalq elmi tədbirlərin, simpozium və konfransların iştirakçısı, əsas məruzəçisi olmuşdur. Alim elm və mədəniyyət korifeylərinin – Farabinin, İbn Sinanın, Bəhmənyarın, Nizaminin, Nəsiminin, A.Bakıxanovun, M.F.Axundovun, İmam Buxarinin və Əhməd Fərqaninin yubileyləri ilə əlaqədar məruzələrlə çıxış etmişdir.

Zakir Məmmədovun həyat və fəaliyyəti AMEA və Mərkəzi Elmi Kitabxana tərəfindən "Azərbaycanın elm və mədəniyyət xadimləri" silsiləsindən olan biblioqrafik göstəricidə (Bakı, "Elm" nəşriyyatı, 2010-cu il) hərtərəfli əksini tapmışdır.

## Nəticə/Conclution

Müasir dövrdə milli mənəvi dəyərlərimizə, fəlsəfi irsimizə maraq artmışdır. AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Zakir Məmmədov 1960-cı illərdən başlayaraq orta əsr Azərbaycan fəlsəfəsi tarixi məsələlərini tədqiq etməyə başlamışdır. Alim 40 illik elmi fəaliyyəti dövründə milli-fəlsəfi irsimizin varlığını üzə çıxarıb araşdırmışdır. Düşüncə sahibini yaşadan onun əsərləridir, Zakir Məmmədov da qələmə aldığı əsərlərdə yaşayır.

Bu məqamda ulu Nizaminin böyük elmi dəyər kəsb edən, dərin məzmunlu əsərlərin müəllifinə əbədi həyat qazandırması haqqındakı fikirləri diqqəti cəlb edir: "Bu mənzuməni oxuyan vaxt Nizaminin hüzurunu sözün arasında taparsan. Hər beytdə sənə bir sirr açan kəs səndən necə gizli qala

bilər? Yüz ildən sonra əgər soruşsan "O haradadır?", hər beytdən səs gələr: "Budur o!".

## İstifadə olunmuş ədəbiyyat/Reference


1. Ağayev M. Azərbaycan fəlsəfəsi tarixinin görkəmli tədqiqatçısı. "Azərbaycan" qəzeti, 16 avqust 2013.

2. Aslanov A. Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri haqqında məlumat kitabı. II cild. Bakı: Elm, 2005.

3. Göyüşov Z. Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri haqqında məlumat kitabı. II cild. Bakı, Elm, 2005.

4. Qasımzadə F. Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri haqqında məlumat kitabı. II cild. Bakı: Elm, 2005.

5. Məmmədov Z. Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri haqqında məlumat kitabı. II cild. Bakı, Elm, 2005.

6. Məmmədov Z. Fəlsəfə tarixşünaslığımızın problemləri. "Ədəbiyyat qəzeti", 25 iyul 1997-ci il.

7. Məmmədov Z. Orta əsr Şərq fəlsəfəsi və fəlsəfə tarixində onun əhəmiyyəti. Şərq fəlsəfəsi (IX-XII əsrlər). Bakı Dövlət Universiteti nəşriyyatı, 1999.

8. Məmmədov Z. Azərbaycanın elm və mədəniyyət xadimləri. Biblioqrafiya. Bakı: "Elm", 2010.

9. Məmmədov (Baharlı) O. Ağdamın adlı-sanlı pedaqoqları, alimləri. Bakı: Sabah, 2001.

10. Səttarov M. Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri haqqında məlumat kitabı. II cild. Bakı: Elm, 2005.

11. Zəkuyev Ə.K. Bəhmənyarın fəlsəfi görüşləri. Bakı, 1958.


**Göndərilib: 05.03.21** **Qəbul edilib: 01.04.21**